«Qeydiyyata alınmışdır»

Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi

Qeydiyyat N 2697
"11" iyun 2001-ci il

Nazir

____________________ F.F.Məmmədov

Azərbaycan Respublikası Mərkəzi Bankı
İdarə Heyətinin

"25 " may 2001-ci il
tarixli qərarı ilə
təsdiq edilmişdir
( Protokol N 20 )

İdarə Heyətinin sədri

_________________ E.S.Rüstəmov

# KREDİT TƏŞKİLATLARI TƏRƏFİNDƏN DİGƏR HÜQUQİ ŞƏXSLƏRİN PAYLARININ (SƏHMLƏRİNİN) ƏLDƏ EDİLMƏSİ Q A Y D A L A R I

**(15 aprel 2010-cu il tarixli dəyişikliklərlə)**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» və «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanunlarına müvafiq olaraq hazırlanmışdır və respublikanın bütün kommersiya (səhmdar-kommersiya) banklarına və xarici bankların filiallarına (bundan sonra – «bank») şamil edilir.

1.2. Bu Qaydalar digər hüquqi şəxslərin kapitalında (paylarında, səhmlərində) bankların iştirakı şərtlərini (investisiya qoyuluşunu) və limitini müəyyən edir.

1.3. Bankların digər hüquqi şəxslərin kapitalında iştirakı böyük risklərlə bağlı olduğuna və nəticədə itkilərlə nəticələnə bildiyinə görə belə iştiraklara məhdudiyyətlər müəyyən olunur.

## 2. Payların (səhmlərin) əldə olunması üçün qoyulmuş məhdudiyyətlər

2.1. Bu Qaydaların 2.3 bəndi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla digər hüquqi şəxslərin kapitalına bankların birbaşa və ya dolayı yolla investisiyalarının məbləği aşağıdakı məhdudiyyətlərdən çox olmamalıdır:

(a) bir hüquqi şəxsin kapitalında iştirak bankın öz vəsaitinin 10 faizindən;

(b) digər hüquqi şəxslərin kapitalında məcmu iştirak bankın öz vəsaitinin 40 faizindən.

2.2. Bu Qaydalarda bankın *öz vəsaiti* dedikdə Mərkəzi Bankın normativ aktları ilə müəyyən edilmiş «tutulmalardan sonra məcmu kapital» başa düşülməlidir.

2.3. Bu Qaydaların 2.1 bəndində müəyyən edilmiş məhdudiyyətlər kredit borcunun ödənilməməsinə görə bankın mülkiyyətinə keçən paylara (səhmlərə) şamil edilmir, bir şərtlə ki, bu payların (səhmlərin) normadan artıq olan hissəsi banka mülkiyyət hüququ keçdiyi gündən etibarən iki il ərzində satılsın. Əgər bank onun mülkiyyətində normadan artıq olan payları (səhmləri) iki ildən çox saxlamaq niyyətindədirsə, səbəbi göstərilməklə o, Azərbaycan Respublikası Mərkəzi Bankının

müvafiq icazəsini almalıdır. Normadan artıq paylar (səhmlər) üzərində mülkiyyət hüququnu icazə verildiyi müddətdən daha artıq müddətə saxlamış bank normativlərin hesablanması zamanı artıq payların (səhmlərin) məbləğini nəzərə almalıdır.

## 3. Digər hüquqi şəxsin kapitalını əldə etmək üçün bankların daxili prosedurları və hesabatı

3.1. Digər hüquqi şəxslərin kapitalını əldə edən hər bir bankın bu işin təşkili barədə yazılı daxili prosedurları olmalıdır. Bu prosedurlar bankın Müşahidə şurası və İdarə Heyəti tərəfindən təsdiq edilməli və aşağıdakılardan əks etdirilməlidir:

- bank investisiyalarının növləri və onların seçilməsi qaydası, investisiya qoyulan müəssisənin forması, İqtisadi sahələri və ölkə üzrə bölgüsü;
- investisiya qoyuluşu barədə qərarların qəbul edilməsi üçün səlahiyyətli şəxslər və investisiyaları həyata keçirəcək şəxslər üçün maksimum limitlər;
- uçot və hesabat qaydaları.

3.2. Digər hüquqi şəxslərin kapitalını əldə edən banklar bu müəssisələr barədə kifayət qədər operativ və mükəmməl informasiyaya və onların fəaliyyətini qiymətləndirmək və müşahidə etmək üçün müvafiq təcrübəyə malik olmalıdırlar. Informasiya Müşahidə şurasına və İdarə Heyətinə uçotu və nəzarəti müvafiq səviyyədə aparmağa və tədbir görməyə imkan verməlidir. Bank rəhbərliyinə təqdim olunan hesabatlarda ən azı kapitalı əldə edilmiş müəssisələrin bazarda mövqeyi, onların təsnifatı, iştirakın nominalı, bazar dəyəri, əldə edildiyi və ödənilməsi nəzərdə tutulan tarixlər barədə məlumatlar olmalıdır.

3.3. Banklar hesabat ayından sonrakı ayın 5 iş günündən gec olmayaraq Azərbaycan Respublikası Mərkəzi Bankına Qaydalara əlavə olunmuş formada (Əlavə N-1) kapitalını əldə etdikləri hüquqi şəxslərin adlarını, investisiyanın balans dəyərini, bazar dəyərini (əgər varsa), investisiyanın qoyulduğu və ödənilməsi nəzərdə tutulan tarixləri göstərməklə hesabat təqdim etməlidirlər.

Bu Qaydalar qüvvəyə mindiyi tarixdən Azərbaycan Respublikası Mərkəzi Bankının «Kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi» üzrə 1997-ci il 21 may tarixli 2 N-li Qaydalarının 8-ci bəndi öz qüvvəsini itirir.

Bu Qaydalar 01 iyul 2001-ci il tarixindən qüvvəyə minir.

KREDİT TƏŞKİLATLARI TƏRƏFİNDƏN
DİGƏR HÜQUQİ ŞƏXSLƏRİN PAYLARININ
(SƏHMLƏRİNİN) ƏLDƏ EDİLMƏSİ
QAYDALARINA

Əlavə N 1

Bankın adı_______________________________

«____» _________________200 _ -ci il tarixinə

Digər hüquqi şəxslərin kapitalının (payların, səhmlərin) əldə edilməsi
haqqında hesabat

(mln. manatla)

| | Hüquqi şəxsin adı | İnvestisiyanın balans dəyəri | İnvestisiya-nın bazar dəyəri (əgər bazarda belə investisiya-ların alqı-satqısı gedirsə) | İnvestisiyanın qoyulduğu tarix | İnvestisiyanın ödənilməsi nəzərdə tutulan tarix | Qeydlər ( burada əgər investisiya borcun əvəzinə alınmışsa göstərilmə-li)* |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7** |
| 1 | | | | | | |
| 2 | | | | | | |
| . | | | | | | |
| n | | | | | | |
| | Cəmi | | | XXX | XXX | |

* Əgər investisiya borcun əvəzinə alınmışsa, onun balans dəyəri (3-cü sütundan) göstərilməlidir.

** 7-ci sütundakı məbləğ 3-cü sütundakı məbləğdən az və ya ona bərabər ola bilər.

Bankın İdarə Heyətinin sədri (A.A.S.)

Baş mühasib (A.A.S.

M. Y.